# Milli Məclisin Sədri Sahibə Qafarova ilə Ukrayna Ali Radasının Sədri Ruslan Stefançuk arasında telefon danışığı olub

**Milli Məclisin Sədri Sahibə Qafarova ilə Ukrayna Ali Radasının Sədri Ruslan Stefançuk arasında telefon danışığı baş tutub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə telefon danışığı zamanı iki ölkə parlamenti arasında əməkdaşlıq məsələləri müzakirə edilib, əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub.




Söhbətdə Azərbaycan-Ukrayna münasibətlərinin hərtərəfli inkişafı fonunda parlamentlər arasında əməkdaşlığın daha da genişləndirilməsi yolları nəzərdən keçirilib, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Bu kontekstdə, spiker Sahibə Qafarova Ruslan Stefançuku Azərbaycan Respublikasına səfərə dəvət edib. Telefon danışığı zamanı parlamentlərarası əlaqələrin birgə səylərlə həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da inkişaf edəcəyinə inam ifadə olunub.

*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 19 avqust (№ 173).- S.2.